

**BULUDXAN XƏLİLOVUN DİL HAQQINDA DEDİKLƏRİ**

Dil bir qəsr deyil, abidə deyil ki, onu qoruyasan. Dilin keşiyində dayanmaq, qorumaq üçün düzgün danışmaq lazımdır.

***

Şifahi dildə danışan insanlar şifahi dilin qayda-qanunlarını, yazılı dildə isə yazılı dilin qaydalarını qorumalıdır.

***

Dil qədər özünü qoruyan varlıq yoxdur, o özü-özünü qoruyur. Dil elə təbii ictimai varlıqdır ki, özünə ziyan gətirənləri çirkab kimi kənara atır.

***

Dünyada saf dil yoxdur, elə dil tapılmaz ki, lüğət tərkibi saf sözlərdən ibarət olsun.

***

Dil təcrid olunmuş yaşaya bilməz, onda quru ağaca bənzəyər və heç kəsə fayda verməz.

***

Azərbaycan dili zənginləşən bir dildir, dilə yeni sözlər gəlməlidir.

***

Dilin lüğət tərkibinə gələn sözlər vətəndaşlıq qazanırsa, artıq dilin lüğət tərkibinin malına çevrilir.

***

Dil özü seçim aparır, o təbii şəkildə inkişaf etməlidir.

***

Dilin inkişafı inzibatçılıqla həll oluna bilməz, ona görə ki, dil praktik bir xidmət dairəsindədir.

***

20-ci əsrdə şairlərin yaradıcılığında kifayət qədər türk sözləri vardı, dildə təmizlənmə prosesi getdi, lüğət imkanı bizə sözləri dəyişməyə imkan verdi.

***

Hər sözün bir məna yükü var, Azərbaycan dilinin xoşbəxtliyi ondadır ki, zəngin inkişaf mərhələsi keçib.

***

Azərbaycan dili qədər təqibə, təzyiqə məruz qalan dil yoxdur.

***

Azərbaycan yazılı dilinin tarixi 11-ci əsrə gedib çıxır. İstənilən yad təsir bizim dili sarsıda bilməyib. 13-cü əsrdə yeni bir mərhələ başlayır, dilimiz fars dili ilə rəqabətə girə bilir, sonra Nəsimi dili gəlir, sonra Füzulinin yaradıcılığı gəlir, ondan sonra Şah İsmayıl Xətai dili gəlir.[1]

[1] https://zirve.info.az/zim.az/tehsil/adpu/62-buludxan-xlilov-azrbaycan-dili-qdr-tqib-tzyiq-qalan-dil-yoxdur.html